İPƏK YOLU, No.4, 2022, səh.91-96

# “HEYVANISTAN” ALLEQORİK BƏDİİ MƏTN KİMİ: ROMANDA UTOPİYA VƏ ANTİUTOPİYA

**Xanım Cəfərli**

Bakı Mühəndislik Universiteti, Xırdalan, Azərbaycan
e-mail: xafetullayeva@beu.edu.az

**Xülasə.** Corc Oruellin “Heyvanıstan” satirik, alleqorik romanı 1945-ci ildə qələmə alınmışdır. “1984” romanına hazırlıq hesab edilən bu əsərdə insan fermerə qarşı inqilab edən və öz hakimiyyətlərini quran bir qrup heyvandan bəhs edilir. Məqalədə özbaşınalıq, onun nəticələri, antisosial ab-hava və s. cəmiyyət problemləri təhlil edilir.

**Açar sözlər:** alleqorik mətn, Heyvanıstan, utopiya, antiutopiya.

## "ANIMAL FARM" AS AN ALLEGORICAL FICTION TEXT: UTOPIA AND ANTI-UTOPIA IN THE NOVEL

**Khanim Jafarli**
*Baku Engineering University, Baku, Azerbaijan*

**Abstract.** George Orwell's satirical, allegorical novel "Animal Farm" was written in 1945. Considered to be a preparation for the novel "1984", this work tells about a group of animals who make a revolution against the human farmer and establish their own government. In the paper arbitrariness, its consequences, antisocial atmosphere, etc. societal problems are analyzed.
**Keywords:** allegorical text, Animal Farm, utopia, anti-utopia.

## «СКОТНЫЙ ДВОР» КАК АЛЛЕГОРИЧЕСКИЙ ХУДОЖЕСТВЕННЫЙ ТЕКСТ: УТОПИЯ И АНТИУТОПИЯ В РОМАНЕ

**Ханум Джафарли**
*Бакинский Инженерный Университет, Баку, Азербайджан*

**Резюме.** Сатирический, аллегорический роман Джорджа Оруэлла «Скотный двор» был написан в 1945 году. Считающееся подготовкой к роману «1984», это произведение рассказывает о группе животных, которые совершают революцию против человека-фермера и устанавливают собственное правительство. В статье анализируются произвол, его последствия, антиобщественная атмосфера и др. проблемы общества.
**Ключевые слова:** аллегорический текст, Скотный двор, утопия, антиутопия.

## 1. Giriş

Tarix boyunca mövcud olmuş əksər quruluşlar böyük vədlər verərək hakimiyyətə gəlmişlər. Bu quruluşların rifah, sülh, bərabərlik, azadlıq və əmin-amanlıq gətirəcəyi gözləntisinə inam daim mövcud olmuşdur. İnsanların hüquqi baxımdan təkmil bir dövlət yaratmaq istəyi ən ali məqssədlərdən biridir. İnsan şüurlu varlıqdır. Elə onu digər canlılardan fərqləndirən ən böyük əlamət də budur. Şüurlu, müqayisələr və analizlər aparmaq qabiliyyəti olan insanlar daim bu arzu ilə yaşamış, böyük ideallar uğrunda mübarizə aparmışlar. Təəssüf ki, bu müqəddəs mübarizə çox zaman fiaskoya uğramışdır. Məcazi mənada xeyirlə şərin hər zaman bir-biriləri ilə döyüşməsi mürəkkəb tarixi ziddiyyətlər ortaya çıxarmışdır. İctimai münasibətlərin gərginləşməsi sağlam mühitin, ideal cəmiyyətin formalaşmasına da ciddi mənada maneçilik yaradır. “Siniflər meydana gəldikdə və sinfi antaqonizmlər kəskinləşdikdə,

ictimai həyatın strukturu mürəkkəbləşir. İctimai münasibətlərin yeni növləri – siyasi və hüquqi münasibətlər meydana gəlir" [4, s. 248].

Formalaşan siyasi münasibətlər sistemi isə çox zaman elə onları formalaşdıran cəmiyyətə də mənfi təsir edir. Bu mənada "Heyvanıstan" romanı öz ideyası və məzmunu, ümumiyyətlə isə bədii məziyyətləri ilə sosial bərabərsizliyə gözəl nümunə ola bilər. "Əsər Soyuq Müharibənin şiddətləndiyi *bir vaxtda işıq üzü görmüş, Stalin Rusiyasının gələcəyi barədə getdikcə artmaqda olan şübhə və qorxuları təsvir edərək çox diqqət çəkmişdir"* [7, s. 8]. Oruell romanda ideal bir siyasi quruluş və ya dövlətin mövcud olmadığını, bunun sadəcə bir utopiya olduğunu göstərmişdir. Oruellin utopiyası alleqrik olduğundan müəllif həm də ideal cəmiyyətin nəinki mövcud olmadığını, ümumiyyətlə gələcəkdə də mövcud ola bilməyəcəyini göstərməyə çalışmışdır. O, Renessans dövrünün romantiklərindən fərqlənərək ilk baxışda bütün həqiqətləri realist yazıçı kimi canlandırmağa çalışmışdır. Bəzən müəllifin oxucuya çatdırmaq istədiyi mesajlarda təzadlar müşahidə etmək mümkündür. Bu mənada müəllifin *"hətta bəzən insan azad olduğu illuziyasına qapılsa belə, insana tam azadlıq verən heç bir dünya quruluşu mövcud deyil və olmayacaq. Azad olduğunu düşünən, lakin ehtiyac olduqda azadlığını müdafiə edə bilməyən, idarəçilərin heç bir qərarını sorğulamayan, öz potensialından xəbərsiz bir fərdin azadlığının heç bir dəyəri yoxdur"* fikrini nümunə göstərmək olar. Belə insan və cəmiyyət mövcud deyilsə, bu zaman Oruell özü utopiyadamı yaşayırdı? Və ya Oruell bu mesajı anlayacaq heç bir fərdin mövcud olmadığını bildiyi halda nə üçün bu müraciəti etmişdi? Müəllifin bu ümidsizlikdə gizlənmiş ümid, reallıqların təsviri fonunda bunları anlaya biləcək bir fərd, oxucu axtarması onun yaradıcılığında romantizmə az da olsa meyil olduğundan xəbər verir.

İnsan obrazları Mister Cons fermanın sahibi və Missis Cons onun xanımıdır. Mayor ləqəbli qoca donuz mübarizənin fikir atasıdır. Burada köpəklər (Blyubell, Cessi, Pinçer), atlar (Bokser, Klover), keçi (Müriel), fermanın ilk sakinlərindən olan və gülməyə heç bir səbəb görmədiyi üçün heç vaxt gülməyən uzunqulaq (Bencamin), əl qarğası (Moses) aparıcı surətlərdir.

Romanın məzmun xəttini izlədikcə hadisələrin 1917-ci ildə baş tutmuş Rusiya inqilabı və ardınca qurulmuş Sovet İttifaqının ilkin mərhələsindən qaynaqlandığını anlamaq mümkün olur. Ferma Çar Rusiyasını, Mister Cons isə axırıncı rus lider Çar II Nikolayı təmsil edir. Marks və ya Leninin prototipi olan Qoca Mayor bütün heyvanların bərabər olduğu ideyasını önə sürür və heyvanları birləşib ümumi düşmənə qarşı üsyan etməyə çağırır. Qoca Mayor düşünür ki, *"marksizm fəlsəfəsi – materialist dünyagörüşünün ən yüksək formasıdır*" [4, s.28]. Onun fəlsəfəsi animizm adlanır, o, sosializm-kommunizm ideyalarını təmsil edir, lakin sonradan bu ideologiya hakimiyyət və güc hərisi olan Napoleon (Stalin) tərəfindən sui-istifadə olunur. O, sosializmi yaxşı formada (öyrədərək, quruculuq edərək) reallaşdıran həmkarı Snoubollu sürgün edir. Napoleon itlərdən ibarət DTK yaradaraq tiranlığını ekstremal həddə çatdırır, etiraz edən hər kəsi öldürür. *"Mayorun əsasını qoyduğu animalizm fəlsəfəsi elə*

*kommunizmdir. Malikanə ferması Rusiyadır. Fermer Mister Cons Rus Çarıdır. Qoca Mayor Karl Marks və ya Vladimir Lenindir. Snouboll intellektual inqilabçı Leon Trotskidir. Napalyon Stalini təmsil edir. Və köpəklər isə onun gizli polisidir. At Bokser isə proletariatı və ya işçi sinfini təmsil edir. Bura ideal məkan olan utopiyanın əksinə bizimkindən də pis olan təxəyyül dünyası distopiyadır"* [1].

Süjet əsasən hakimiyyət eşqi ilə alışıb-yanan Napalyonun insan fermerin qovulmasından sonra Heyvanıstanı idarə edən diktatora çevrilməsi üzərində qurulmuşdur. O "Bütün heyvanlar bərabərdir" şüarını "Bütün heyvanlar bərabərdir, lakin bəzi heyvanlar daha bərabərdir" ilə əvəz etməklə subyektiv idarəçilik metodunun bünövrəsini qoyur. Napoleon sonradan Heyvanıstanın adını Malikanə qoyaraq əvvəlki adına qaytarır. "*Bu şüar Oruellə görə 1917-ci ildə Rusiyada baş vermiş kommunist inqilabından sonra müşahidə olunan dəyişikliklərin bir rəmzi ifadəsidir. Devirmək niyyətində olduğu kapitalist təbəqə sistemini aradan qaldırmaqdansa, inqilab onu sadəcə başqa bir iyerarxiya ilə əvəz etmişdir*" [1].

Romandakı digər aparıcı mövzular zorakılıq şəraitində xüsusi bandadan ibarət hökümət, dindən sui-istifadə, reallığın saxtalaşdırılması, saxta ittihamlar, ölüm, siyasi korrupsiyadır. Müəllif siyasi idarəetmə ideologiyası daxilində tarixi faktların saxtalaşdırılması məsələsi burada çox qabarıq təsvir edilmişdir. Tarixi faktların saxtalaşdırılması problemi qabardılaraq məsələnin ciddiliyinə diqqət çəkilir. Təhsilli, ziyalı təbəqənin aradan qaldırılması, gənc nəslə bunların unutdurulması, cahil təbəqəyə saxta faktlar barədə təbliğat aparılması və dildən istifadə edərək həqiqəti əks etdirən ifadələrin xalqın leksikonundan çıxarılması bunlara nümunədir. Dil xalqı idarə etmək üçün ən güclü vasitədir. Kommunist sistem öz istəmədiyi fikirlərin səsləndirilməsini qadağan etməklə hətta insanların dilinə belə müdaxilə edir. Oruell düşünürdü ki, hakimiyyətdə olanlar hər zaman öz mənafeləri naminə dili manipulyasiya edirlər. Oruell kommunizmi insanların bərabərliyini iddia edən utopik bir sistem kimi qəbul edir. Bu fikirlər müəllifin "1984" romanına hazırlıq gördüyünü bir daha göstərir.

Yazıçı romanda heyvanları zəhmətkeş, mehriban, biri-birini müdafiə edən varlıqlar kimi təsvir edərək cəmiyyətin sadə kəsiminin zəhmətkeşliyini, şəffaf əmək münasibətlərini qabardır. Mister Cons və onun yoldaşı Missis Consun simasında insan isə tənbəl, vicdansız, avara olaraq göstərilir. Əsərin sonuna doğru donuzların simasında onların insana xas xüsusiyyətləri qazanmaları və istibdadçı bir əzazilə çevrilmələri ön plana çəkilir. Donuzların vicdansız, yalançı, riyakar və tənbəl kimi xüsusiyyətləri insanlarla eyniyyət təşkil edir.

Totalitar rejimdə xalqın cahil və məsum nümayəndələri manipuliyasiya edilir. Təhsilsiz kütləyə asanlıqla təzyiq göstərmək, onu qorxutmaq olar, faktları saxtalaşdırıb onu zəhmətsiz inandırmaq olar. Yazıçı burada əsl intellektual ziyalı kimi öz mövqeyini ortaya qoyur və təhsilin önəmindən danışır. Sağlam cəmiyyətdə yaşamaq üçün təhsil aparıcı faktordur. Elə məhz əsərdə də Stalinin ədalətsiz rejimi öz əksini tapıb. Napoleonun fermada hakimiyyətini qurduqdan sonra heyvanlara etdiyi zülmlər, heyvanları öz azadlıqlarından

məhrum etməsi, edamlar, şər kompaniyaları Stalinin rəhbərliyi ilə Sovet İttifaqında baş vermiş hadisələrə açıq işarədir.

Elə propoqandanın gücü də məhz budur, hakimiyyəti əllərinə almış donuzlardan qat-qat artıq fiziki gücə malik heyvanlar, məsələn, atlar güclərindən istifadə edib donuzları məğlub etməyə çalışmırlar. Onlar düşüncələrində belə bunu etmirlər, çünki psixoloji olaraq təsir altındadırlar. Bir iş yerində, şirkətdə 100 nəfər işçinin 90-ı direktordan narazıdırsa, 90 nəfər 10 nəfərlə çox asan mübarizə apara biləcəyi halda bunu ağlından belə keçirmirsə, deməli, azadlıq uğrunda mübarizə həqiqətən də ilk öncə beyində başlamalıdır. Oruell əsərdə sadəcə hakimiyyəti deyil, hakimiyyətə etiraz etməyən kütləni də tənqid edir. Onları öz güclərinin və potensiallarının fərqində olmağa səsləyir. Əsərin alleqorik mesajlarından biri də məhz budur: heyvanlar güclərinin fərqində olmadıqları üçün biz onlara hökmranlıq edə bilirik. Necə ki, çoxluq təşkil edən işçi sinfi və ya proletariat öz gücünün fərqində olmadığı üçün hakimiyyət onları istədiyi formada idarə edir. Heyvanlardan fərqli olaraq insanlar bu gücün tətbiqinin və nəticədə qalib gəlməyin gətirəcəyi məsuliyyətlərdən yayınmaq üçün də azadlıqları bahasına idarə olunmağı seçirlər.

Bu tənqidin özündə də bir ümidsizlik, küskünlük var. Çünki tənqidlərin nəticəsində insanlar siyasi rejimi devirməyə nail olsalar da, həm öz xislətləri, həm də hakimiyyət məhfumunun gətirdiyi şüuraltı nüanslar səbəbilə yeni quracaqları rejimdə də oxşar xətalara yol verərək ədalətsizliyə səbəb olmuş olacaqlar. Deməli, yazıçı ümumi olaraq bu gedişata qarşıdır. Amma o özü də bunun romantik bir etiraz olduğunu bilir. Başqa sözlə desək, bu real hadisələrə romantik etirazdır.

Oruellin alleqoriyadan istifadə etməsi məsələnin birbaşa izahından daha çox effektiv olmuşdur. Kommunizmin və onun nəticələrinin təsviri bu dərəcədə emosiya və düşüncəyə səbəb olubsa, bu alleqoriyanın mürəkkəb mənəvi məsələləri daha təsiredici irəli sürmə gücü ilə əlaqədardır. Bu əsər alleqorik formada deyil, sırf siyasi hadisələri əks etdirən insan obrazları ilə olsa idi, bu dərəcədə təsiredici və anlaşıqlı olmazdı.

Əsərdə yazıçı simvol və alleqorik obrazlardan istifadə edir. Simvollar adətən bir fərdi xarakter, obyekt və vəziyyətə aid olsa da, alleqorik obrazlar bütövlükdə daha böyük bir məqsədə xidmət edir. Burada simvollar vahid səhnələrin təmsilçisi kimi çıxış etsə də, alleqorik ünsürlər mətn boyu motiv kimi özünü göstərir. Donuzlar mütləq monarxiyaya malik oliqarxların simvoludursa, burada alleqoriya odur ki, kommunizm hakimiyyətin bir nəfərin əlində toplanmasına və nəticədə korrupsiyaya gətirib çıxarır. Alleqoriya təhkiyənin böyük ideyası, simvol isə o ideyanın yaradılması üçün istifadə olunan ədəbi vasitədir. Müəllif alleqoriyadan istifadə edərək böyük, mürəkkəb ideyalarını neytral formada təqdim edir. Bu vasitə ilə özü və müzakirəyə qoyduğu siyasi və sosial reallıqların kəskin tənqidi arasında müəyyən məsafə yaratmış olur.

Əsərin başlanğıcında Mayor donuzun ölümünə az qalmış heyvanlara verdiyi nəsihətlər onlarda inqilab istəyini tətikləyir. Mayor donuz heyvanların əməyinin istismarından və

qarşılığında isə balalarından ayrılmalarından və nə özlərinə, nə balalarına bir gün ağlanmamağından danışır. Heyvanlar haqlı olaraq narazılıq edirlər ki, insanlar heç nə istehsal etmədən hər şeyə ağalıq edirlər. Ət, süd, dəri, ot, meyvə, tərəvəz – bunlar heç biri insanın istehsalı deyil, lakin onların istifadəsinə insan qərar verir. "*Doğulduğumuz gündən bizə ancaq nəfəsimizi canımızda tutmağa kifayət edəcək qədər yemək verirlər. Günlərin birində, artıq işə yaramayanda tərəddüdsüz- filansız hamımızı sallaqxana bıçağının altına göndərirlər. İngiltərədə bir yaşına çatmış elə heyvan yoxdur ki, haqqı çatan istirahətin, yaxud xoşbəxtliyin nə olduğunu bilsin. İngiltərədə heç bir heyvan azad deyil. Bəlkə bütün bunlar ona görə belə olur ki, torpaqlarımız məhsuldar deyil, sakinlərinin həyatını təmin edə bilmir? Yox, yoldaşlar, min dəfə yox! İngiltərənin iqlimi mülayimdir, torpağı barlı- bəhərlidir. Təkcə bizim fermada bir düjin at, iyirmi inək, yüzlərlə qoyun saxlamaq olar. Bəs elə isə biz niyə bu cür acınacaqlı vəziyyətdə yaşayırıq? Çünki zəhmətimizin bütün bəhrələrini insan oğurlayır"* [3].

Oruell çox yaxşı dərk edirdi ki, insanın hər hansı bir siyasi rejimdə azad, ədalətli cəmiyyətdə yaşaması bir xülyadır. Bu, romantik bir xəyaldır. Yəni utopiyadır. Oruell bu əsərlə və eləcə də, "1984" romanı ilə mövcud olmuş, hazırda mövcud olan və hətta gələcək nəsillərin görəcəyi istənilən siyasi rejimə qarşı çıxaraq siyasi quruluşların hər birinin ədalətsizliyinə və insanın əslində çox bədbəxt bir həyat sürüb sonra dünyadan köçməsinə işarə edir, diqqət çəkir.

Cəmiyyətin idarəetməsində mənfi meyillər çoxaldıqca problemlər də çoxalır. Belə ki, korrupsiyanın heç bir maneə olmadan irəliləməsi, onun icra və tətbiq mexanizmini genişləndirir. Belə olduqca korrupsiya artıq bir qaydaya çevrilir. Bunun da nəticəsində cəmiyyətin sütunları sarsılır, bərabərlik anlayışı nisbiləşməyə başlayır. Oruell romanda bu keçidi uğurla təsvir edərək, bərabərsizlik olan cəmiyyətlərin ümumi mənzərəsini yaradır.*"Hakimiyyət korrupsiya edir, mütləq hakimiyyət isə mütləq korrupsiya edir. Hakimiyyət adətən korrupsiyaya aparır. Totalitar rejimdə bərabərlikdən söhbət belə gedə bilməz"* [2].

Oruell sadəcə totalitarizmin düşməni deyildi, o, insan nəslini də tənqid edirdi. İsanların əksəriyyəti gətirəcəyi məsuliyyətlərdən uzaq olmaq üçün azadlıqdan imtina edirlər, ondan qorxurlar. Fərdin ailəyə, ailənin isə cəmiyyətə çevrildiyi həqiqətini əksər avam insanlar qavramaqda çətinlik çəkirlər. Buna görə hamı məsuliyyəti öz üzərindən atmağa çalışır. Nəticədə, mazoxist meyillər sadə həyat tərzinə çevrilir. *"Bu insanlarda qatil və əzab verən şəxsə, cəllada qarşı gizli bir heyranlıq, itaət, başqa sözlə sado-mazoxizm münasibətinə bənzəyir"* [5, s. 204].

Müəllifin önə sürdüyü bu təzadlı tənqiddə siyasi quruluşun zülmə uğratdığı insan və insanın təşkil etdiyi, yaratdığı və nəticədə insanı zülmə uğradan siyasi rejim - hər ikisi atəşə tutulur. Müəllifin bu siyasi mənzum satirada alleqorik obrazlardan – heyvanlardan istifadə etməsinin bir səbəbi də oxuculara heyvanların şüurları olmaması, düşünə bilməmələri və buna görə hər şeyi kor-koranə qəbul edib belə acı aqibətlə üzləşdiklərini, lakin insan olaraq onların

düşüncəyə, şüura malik olduqlarını və hər zaman bir çıxış yolu tapa biləcəklərini xatırlatmaq idi. Heç nəyə reaksiya verməmək, kor-koranə yaşamaq kimi xüsusiyyətlər heyvanlara xasdır. Bu da Oruell alleqoriyasının fərqləndirici xüsusiyyəti kimi önə çıxır.

Oruellin obrazlarının fikirləri, mübarizələri, qorxuları və arzuları bütün dövrlər üçün aktualdır. *“Oruellin əsərlərini oxuduqca, oradakı fikirlərin bir oxucu olaraq özünə məxsus olduğunu iddia etmək istəyirsən. Sanki Oruell sənin beynindən keçirdiyin qorxulardan və mübarizələrdən yazıb. Sanki onun əsərlərinin müəllifi sənsən”* [6, s. 183].

Yazıçı romandakı problemləri bacarlıqla təsvir edərək maraqlı ideya-məzmun kombinasiyası yarada bilib. Buna baxmayaraq romanın ideya-məzmun xüsusiyyətləri alleqorik detektiv siyasi mətn təəssüratı daşıyır. Romanda hadisələrin izahına daha çox yer verilməsi obrazların və proseslərin bədii gücünü azaldır. Bunu bir tərəfdən Oruellin çoxlu məlumatla çox şeyi demək istəməsi kimi qəbul etmək mümkündür. Lakin bədii-estetik prinsiplərin gözlənilməsi də olduqca vacibdir. Bütün bunlar bədii mətnin ilkin xüsusiyyətləridir. Romanda qoyulan mövzular çox genişdir. Bunun kiçik romanda əks olunması, təbii ki, alqışlanmalıdır. Alleqoriyanın fərqli şəkildə təsviri də yazıçının növbəti nailiyyəti kimi düşünülə bilər. Ümumilikdə romanda utopiya və distopiya keçidi realist təsirlərlə dəyişə bilir. Belə olduqca yenə də ən böyük yük insan faktorunun üzərinə düşür. *“Oruell 1946-cı ildə qələmə aldığı ‘Mən niyə yazıram’ essesində siyasi yazını incəsənətə çevirəcəyini qeyd edir”* [7, s. 1].

O, həqiqətən də bunu bacarır. Oruell tarixi danışmadan izah edir, siyasəti izah etmədən siyasi rejimi tənqid edir, sadə təhkiyə ilə dərin mesajlar verərək indi belə oxuculara toxuna bilir. Oruellin yazı tərzi nəsrdə həqiqət axtarışı vasitəsilə tam əlaqəli şəkildə özünü büruzə verir.

**Ədəbiyyat**

1. https://www.cliffsnotes.com/literature/a/animal-farm/summary-and-analysis/chapter-1
2. https://www.aplustopper.com/animal-farm-essay/
3. Oruell C., Heyvanıstan, Azərbaycan dilinə tərcümə edəni Vilayət Quliyev, Qanun nəşriyyatı. 192 s.
4. Konstantinov, F.V., Marksizm – Leninizm fəlsəfəsinin əsasları, Maarif, Bakı, 1980, 259s.
5. Why Orwell Still Matters, Christopher Hitchens, The Cambridge Companion to George Orwell, John Rodden, 2007, 201 p.
6. Orwell for Today’s Reader: an Open Letter, John Rodden, The Cambridge Companion to George Orwell, John Rodden, 2007, 235 p.
7. The Cambridge Companion to George Orwell, Cambridge University Press, Edited by John Rodden? 2007, 235 p.